VÄDERSTAD

# Rapid 300C

## Toxumsəpən



VÄDERSTAD

# Hər qarış torpağı canlandıran!

1962-ci ildə əsası qoyulan “Väderstad” şirkəti zəngin və rəngarəng inkişaf yolu keçib. 60 ildən çox istehsal təcrübəsinə malik bu  İsveç brendi müasir texnikaları ilə tanınır. Hazırda “Väderstad” dünyanın 40-dan çox ölkəsini çoxfunksiyalı aqreqatlarla təmin edir. "Väderstad" brendi kombinələşdirilmiş mexanizmlərlə təchiz olunan çoxfunksiyalı kənd təsərrüfatı texnikalarının öncüllərdəndir.



# Väderstad Rapid 300C

“Rapid 300C” kombinələşdirilmiş toxumsəpəni bir keçiddə torpaq hazırlığını, səthin hamarlanmasını, səpini və səpin cərgəsinin bağlanmasını həyata keçirir. “Rapid” sadə və güclü konstruksiyası sayəsində uzunömürlüdür , minimum istismar xərci və vaxt sərfiyyatı ilə yüksək performans göstərir.






## Pivot təkər və vərdənə dəstəkləyici

Əkinə başlamadan torpaq traktor təkərləri ilə sıxılır. "Rapid"ə qoşulmuş bu pivot dəstəkləyici təkərlər arasındakı hissələrdə də bərabər sıxılmanı təmin edir.





## Ağır, lövhəvari dayaqlara bağlı alət çərçivəsi

Ağır, lövhəvari dayaqlara bağlı alət çərçivəsi (CrossBoard Heavy)“Rapid”toxumsəpənini çevikləşdirir və əkin işlərini sürətləndirir.
Sərt dişlər və bucaqlı aşınma lövhələri ilə təchiz olunub, torpaq parçalayıb, sahəni düzləşdirir. Çox ağır torpaqlarda işləyərkən, eyni zamanda toxum yatağı hazırlayır.





## Disklər

Texnika ikisıralı, 450 mm diametrli və konik formalı disklərlə təchiz olunmaqla torpağın üst qatını kəskin şəkildə kəsərək saman,torpaq və digər qalıqları intensiv şəkildə xırdalayır.





## İzləyici dırmıq

Bu dırmıq “Väderstad” tərəfindən təqdim olunan uzunömürlü bir alətdir. Bu alət toxum səpildikdən sonra torpağın səthində buxarlanma maneəsi yaradır və iri torpaq parçalarını, həmçinin alaq otlarını səthə çıxardaraq torpağın strukturunu yaxşılaşdırır. Aşınmaya məruz qalan hissələrdə sərt metal ilə gücləndirilmiş dişlərə malik olması istifadə müddətini əhəmiyyətli dərəcədə artırır.



# Texniki təsnifat

VÄDERSTAD

| Model | Rapid 300C |
|---|---|
| Toxum ölçmə sistemi | Hidravlik |
| İşləmə eni | 3 m |
| Nəqliyyat eni | 3 m |
| Nəqliyyat hündürlüyü | 2,7 m |
| Nəqliyyat uzunluğu (min./maks.) | 6,35-8,3 m |
| Çəki (min./maks.) | 2400-4300 kq |
| Toxum tutumu | 3150 L |
| Toxumsəpici element sayı | 24 ədəd |
| Toxumlararası məsafə | 125 mm |
| Gübrə səpici element sayı | 12 ədəd |
| Gübrələrarası məsafə | 250 mm |
| Toxumsəpici elementin təzyiq qüvəsi (min./maks.) | 82-245 kq |
| Disk diametri ön SDA | 450 mm |
| Təkər ölçüsü (nəqliyyat təkərləri) | 190/95 x 15 |
| Yağ axını tələbi | 70 L |

Rapid 300C

Rapid 300C

